1_Layout 1 30.04.2022 9:52 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 9 (623)

30 aprel 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Zəfər manifesti

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu “Zəfər manifesti” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



### İlham Əliyev dünya azərbaycanlılarının yeni fəaliyyət platformasını müəyyənləşdirdi

“Bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz”.

Dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı bir araya gətirən Dünya Azərbaycanlılarının Zəfər Qurultayında Müzəffər Komandan İlham Əliyev həm Vətən müharibəsindəki Böyük Qələbəni, postmüharibə dövrünün yeni reallıqlarını qiymətləndirdi, həm də dünya birliyinə açıq mesajlar ünvanladı.

Postmünaqişə dövrünün reallıqlarını da dəyərləndirən Prezident məğlub Ermənistan və onun havadarlarına bir daha çatdırdı ki, bundan sonra hansısa siyasi oyun oynamaq mənasızdır. Qarabağ münaqişəsi bitib, status-kvonu Azərbaycan öz gücünə dəyişib və hər kəs bu reallıqları qəbul etməlidir. Ermənistan isə İlham Əliyevin 5 prinsipdən ibarət təkliflərini özündə ehtiva edən sülh müqaviləsini imzalamağa məhkumdur. Çünki istənilən müharibənin sonunda diktə edən qalib tərəf olur.

### Zəfər qurultayının tarixi və rəmzi mənaları

Öncə onu qeyd edək ki, Dünya Azərbaycanlılarının I Qurultayı Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II qurultay Prezident İlham Əliyevin sərəncamına əsasən, 2006-cı ildə, III qurultay 2011-ci ildə, IV qurultay isə 2016-cı ildə keçirilib.

Dünya Azərbaycanlılarının V qurultayının məhz “Şuşa ili”ndə qədim Zəfər qalamızda qeyd edilməsinin çox böyük tarixi və rəmzi mənası oldu.

Bu qurultay şanlı qələbədən sonra dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirdi. Müzəffər Komandan məhz buna görə də budəfəki toplantını Zəfər qurultayı adlandırdı.

İlham Əliyevin qurultayda konseptual xarakter daşıyan nitqi postmünaqişə dövründə ölkəmizin mövqeyi ilə yanaşı, diaspor fəaliyyətinin inkişafı üçün də əsas hədəfləri aydın şəkildə özündə ehtiva etdi.

Qurultay iştirakçılarının hamılıqla səsləndirdiyi “Qarabağ Azərbaycandır!” şüarının sədası bütün Qarabağa, Şərqi Zəngəzura yayıldı. Xankəndidə və Rusiya sülhməramlılarının nəzarəti altındakı Azərbaycan torpaqlarında yaşayan Qarabağın erməni əhalisinə bir daha bəlli oldu ki, bundan sonra tarix boyu Azərbaycan bayrağının kölgəsi altında yaşayacaqlar.

Prezident qurultayın həm də çox böyük tarixi mənasının olduğunu diqqətə çatdırdı.

2016-cı ildə keçirilən IV qurultay zamanı da Azərbaycan qələbə əhvali-ruhiyyəsində idi. Aprel döyüşlərində əldə edilən qələbədən sonra düşmənin öz ordusu haqqında yaratdığı “miflər” məhv oldu. İlham Əliyev bir daha Ermənistana xəbərdarlıq edərək bildirdi ki, istənilən təxribata cavab veriləcək və növbəti əks həmlələr işğalçı üçün daha betər olacaq.

Cəmi 4 il sonra tarixi an yetişdi və Azərbaycan haqq savaşına qalxdı. Ermənistan cəmi 44 günə Azərbaycan qarşısında diz çökdü. 30 illik münaqişəyə Azərbaycan öz gücü, qüdrəti ilə son qoydu və Dağlıq Qarabağ problemini həll etdi. İlham Əliyev Azərbaycan tarixinə xilaskar və Müzəffər Komandan kimi adını yazdırdı.

### Prezident diasporumuz qarşısında yeni vəzifələr müəyyənləşdirdi

Şuşa qurultayında əsas mövzular arasında postmüharibə dövründə diaspor fəaliyyətinin təşkili dayanırdı. Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında fəallıq göstərən insanlar onillərdən bəri xalqımızın haqq mübarizəsinin ən parlaq nəticəsi - mərd oğulların dastan yazdıqları doğma Şuşa şəhərində bir araya gəldilər.

Zəfər qurultayı yeni reallıqlar şəraitində Azərbaycan diasporunun fəaliyyəti üçün həm də yol xəritəsi oldu. Qeyd etməliyik ki, Vətən müharibəsi başlayarkən xarici ölkələrdə yaşayan soydaşlarımız, diaspor üzvləri mütəşəkkil şəkildə birləşərək erməni barbarlığını, Azərbaycan həqiqətlərini dünyaya bəyan etdilər.

Prezident isə onlara həm də postmünaqişə dövrünün reallıqları fonunda görüləcək işlərin yol xəritəsi və yeni vəzifələri müəyyənləşdirdi.

Müharibə zamanı xaricdə yaşayan soydaşlarımızın apardıqları informasiya müharibəsinin bu gün də davam etdirilməsini vacib məsələ hesab edən İlham Əliyev bildirdi ki, müharibə bitsə də, ölkəmizə qarşı olan ərazi iddiaları hələ başa çatmayıb. Ancaq bu da tezliklə başa çatacaq: “Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki, bu iddialar var və biz buna hazır olmalıyıq”.

Prezident dedi ki, xaricdə yaşayan gənc azərbaycanlılar həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməli, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir.

Beləliklə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük rol oynayan diaspor üzvləri geri döndükdən sonra yeni layihələr işləyib hazırlayacaq, fəaliyyətlərini müasir dövrün tələblərinə uyğun formada quracaqlar.

### Ermənistanın son şansı

İlham Əliyevin qurultayın açılışında çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan post-müharibə dövrünə tam hazırdır və öz sülh gündəliyini təqdim edir. Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən, diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə Azərbaycan bir daha xoş niyyətini göstərir.

Son vaxtlar isə əlaqələrin normallaşması məsələsi gündəlikdədir. Avropa İttifaqının təşəbbüsü ilə keçirilən sülh danışıqları zamanı müəyyən razılaşmalar da olub. Amma yenə də bu məsələdə gündəliyi İlham Əliyev müəyyənləşdirir. Əgər belə olmasaydı, Ermənistan Qalib Komandanın irəli sürdüyü 5 prinsipdən ibarət təklifi qəbul etməzdi.

Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. İlham Əliyev hesab edir ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və məhz beş prinsip əsasında danışıqları aparmaq fikrindədir.

Hazırda iki ölkənin xarici işlər nazirlikləri işçi qrupları formalaşdırır və yaxın gələcəkdə konkret danışıqlara başlanılacaq.

Müzəffər Komandan eyni zamanda Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələrə də səsləndi: “Həmin qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq".

Beləliklə, Zəfər qurultayı Azərbaycan diasporunun tarixində yeni bir mərhələnin başlanğıcı oldu. İlham Əliyev yeni dövrün inkişaf strategiyası ilə bağlı bütövlükdə, dünya azərbaycanlıları üçün əsas hədəfləri müəyyənləşdirdi, tövsiyə və tapşırıqlarını verdi, eyni zamanda, iqtisadi cəhətdən tənəzzülə uğrayan məğlub Ermənistana sonuncu şansı verdi.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Aprelin 19-da Daxili İşlər Nazirliyində mülkiyyət əleyhinə olan və əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən cinayətlərin, həmçinin, xırda talamaların qarşısının alınması və açılması, mühafizə-siqnalizasiya vasitələrinin tətbiqi sahəsində fəaliyyətin nəticələrinə həsr olunmuş onlayn formatda Kollegiya iclası keçirilib.**



İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin vətəndaş məmnunluğunun təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından aktual olduğunu və həmin istiqamətlərdə həyata keçirilən tədbirlərin müasir dövrün tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsinin və daha da gücləndirilməsinin vacibliyini vurğulayıb.

Cari ilin birinci rübündə əməliyyat-xidməti fəaliyyətin nəticələrini müsbət dəyərləndirən nazir V.Eyvazov bildirib ki, bu müddətdə qeydə alınmış 8.622 cinayətin 86 faizinin açılması təmin olunub, qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, mülkiyyət əleyhinə olanların, o cümlədən, oğurluqların, soyğunçuluqların, quldurluqların, hədə-qorxu ilə tələb etmələrin, avtonəqliyyat vasitəsini qaçırmaların açılması ötən ilin müvafiq dövrü ilə müqayisədə yaxşılaşıb. Qanunsuz dövriyyədən 1 ton 64 kiloqram narkotik vasitə çıxarıldığını qeyd edən nazir bu əməllərlə bağlı 1.689 nəfərin məsuliyyətə cəlb edildiyini, habelə axtarış işinin, o cümlədən, ağır və xüsusilə ağır cinayətlərə görə axtarılan şəxslərin tutulmasının nəticələrinin yüksəldiyini, 556 nəfərdən ibarət 220 cinayətkar qrupun zərərsizləşdirildiyini nəzərə çatdırıb.

Gündəlikdəki məsələlərlə bağlı nazir müavini, Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis general-leytenantı Fazil Quliyev, Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş Mühafizə İdarəsinin rəisi, polis general-mayoru Nurulla Məmmədxanlı, Katibliyin rəisi, polis polkovniki Nahid Məmmədzadə və Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki Vüqar Ələkbərov məruzə ediblər.

Müzakirə olunan məsələlər ətrafında bir sıra ərazi polis orqanlarının rəisləri çıxış edərək görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran nazir, general-polkovnik V.Eyvazov qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulmuş tapşırıqların cari ilin birinci rübündə də layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini diqqətə çatdıraraq xidməti fəaliyyətin səmərəliliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qarşıya



qoyduğu əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib. Həmçinin, xidməti fəaliyyətdə müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə, polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin vacibliyini nəzərə çatdıraraq bir sıra konkret tapşırıqlar verib.

Nazir, general-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

2_Layout 1 28.04.2022 17:23 Page 1



# Daxili Qoşunların Baş İdarəsində videokonfrans formatında Hərbi Şuranın iclası keçirilib

**Aprelin 16-da Daxili Qoşunların Baş İdarəsində videokonfrans formatında Hərbi Şuranın iclası keçirilib.**

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, Daxili Qoşunlarda tərbiyə işinin təşkili, hərbi intizamın və qanunçuluğun möhkəmləndirilməsi döyüş hazırlığının artırılmasında əsas aspektlərdən biridir.

Diqqətə çatdırılıb ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi uzaqgörənliyi, idarəçiliyi və gərgin əməyi sayəsində həyata keçirilmiş məqsədyönlü islahatlar sonrakı illərdə ölkəmizin davamlı və dinamik yüksəlişi üçün möhkəm zəmin yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sınaqlardan çıxmış dövlətçilik strategiyasını böyük səriştə ilə inkişaf etdirməkdədir. Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış hərbi zəfərimiz beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu daha da artırıb, Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıq yaradıb.

General-leytenant Şahin Məmmədov iclasın gündəliyini elan etdikdən sonra 2022-ci ilin müvafiq dövrü ərzində Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti barədə daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov məruzə ilə çıxış edib.

Məruzədə bildirilib ki, ötən müddət ərzində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən Daxili Qoşunların şəxsi heyəti öz andına sadiq qalaraq respublikada ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə, bütövlükdə, qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında yüksək peşəkarlıq və qətiyyətlilik nümayiş etdirib.

Qeyd edilib ki, şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına, hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılmasına yönəldilib. Bu məqsədlə, hərbi hissələrdə keçirilən tərbiyə işi tədbirləri nəzarətə götürülüb, hərbi intizamın vəziyyəti üzrə təhlillər aparılıb, fəaliyyət istiqamətləri üzrə müvafiq tövsiyələr verilib.






Həmçinin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi Qələbənin əhəmiyyəti, möhtəşəm dövlət quruculuğu prosesi, işğal altında olan torpaqlarımızın azad edilməsi ilə dövlətimizin beynəlxalq arenada nüfuzunun artması şəxsi heyət arasında geniş təbliğ edilib.

Bununla yanaşı, Daxili Qoşunlarda cinayət, hadisə və kobud intizam pozuntularına yol verilməməsi, neqativ halların vaxtında qarşısının alınması məqsədilə müvafiq göstərişlərin hazırlanaraq hərbi hissələrə göndərildiyi və icrasının nəzarətdə saxlanıldığı vurğulanıb.

Məruzəçi əlavə olaraq bildirib ki, respublikada baş verən ictimai-siyasi hadisələr, dövlət səviyyəli tədbirlər daim diqqət mərkəzində saxlanılıb, Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının və zəngin siyasi irsinin öyrənilməsi təmin edilib, mühüm tədbirlərdə və yekunlarda dövlət başçısının çıxışları, eləcə də bununla bağlı Prezident Administrasiyasından göndərilən tezislərdən ictimai-siyasi hazırlıq məşğələlərində və digər tərbiyə işi tədbirlərində geniş istifadə olunub.

Məruzədə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş aidiyyəti dövlət proqramlarının tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı şəxsi heyət arasında maarifləndirmə işinin aparıldığı, gənclərin mənəvi-psixoloji durumunun yüksəldilməsi, sağlam həyat tərzi keçirmələri, narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirildiyi bildirilib.

Çıxışının sonunda general-mayor İ.Muradov Baş İdarənin idarə, şöbə və xidmət rəisləri, hərbi hissələrin komandanlıqlarının əldə olunan nailiyyətlərin qorunması, eləcə də mövcud nöqsanların qısa müddətdə aradan qaldırılması üçün əzmlə çalışacaqlarına, hərbi intizamın vəziyyətinin yüksəldilməsi, xidməti-döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsi istiqamətində hər bir hərbi qulluqçunun əlindən gələni əsirgəməyəcəyinə, qarşıya qoyulan tələb və vəzifələrin yerinə yetirilməsinə daha məsuliyyətlə yanaşacağına əminliyini ifadə edib.

Daha sonra mövcud vəziyyət, fəaliyyətdə qazanılmış nailiyyətlər, eləcə də yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri, onların aradan qaldırılması istiqamətində görülən işlər barədə bir sıra hərbi hissə komandirlərinin və onların tərbiyə işləri üzrə müavinlərinin hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verərək, Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək, ləyaqətlə xidmət edəcəyinə, həmçinin, ictimai təhlükəsizliyin, vətəndaşlarımızın əmin-amanlığının etibarlı qorunması üçün daim var qüvvəsi ilə çalışacağına əminliyini ifadə edib və onlara fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, aprel ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini-daxili qoşunlar komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.



Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə bağlı məlumat verən 25031 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirdi ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir. Onların hərbi xidmətə tədricən uyğunlaşdırılmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilib. Bunun üçün mənəvi-psixoloji hazırlıq planları hazırlanıb və hərbi hissə komandiri tərəfindən təsdiq olunub.

Çağırış qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verdi ki, hərbi həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Söhbət zamanı onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Həmçinin, hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim-terapevt, həkim-stomatoloq, həkim ekspert-psixonevroloq və ordinator-oftalmoloq tərəfindən müayinə olunublar, ümumi bədən baxışı və sonda profilaktik flüoroqrafik müayinə keçirilib.

Qrup rəhbəri onu da əlavə etdi ki, tibbi müayinədən keçirildikdən sonra koronavirus pandemiyası ilə əlaqədar olaraq TƏBİB-in həkimləri tərəfindən bütün çağırışçılardan analizlər götürülüb. Müayinələrdən keçən çağırışçılar barədə hərbi həkim komissiyası tərəfindən rəylər verilib və yalnız praktiki sağlam hesab olunanlar hərbi xidmətə qəbul ediliblər.

Bununla yanaşı, çağırışçılar əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunublar.



Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu tərəfindən müvafiq məsləhətlər verilib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ HİSSƏNİN QABAQCIL BÖLMƏSİ



Hərbi hissələrimizdə döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Xidməti tapşırığa əsasən, 99713 saylı hərbi hissəyə ezamiyyətim zamanı ilk olaraq baş çəkdiyim bölmələrdən biri polkovnik-leytenant Qalib Məhərrəmovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsi oldu. Hərbi hissə komandiri tərəfindən xidməti-döyüş fəaliyyəti müsbət qiymətləndirilən dəstə haqqında danışarkən polkovnik-leytenant Q.Məhərrəmov bildirdi ki, dəstənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumun yüksək olması, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır.

Dəstəyə təhkim olunmuş döyüş texnikasının, silah-sursatın və müxtəlif əmlakların vəziyyətinin daima diqqətdə saxlanılması, daxili qayda-qanuna riayət edilməsi də bu istiqamətdə əsas amillərdir. Şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, tərbiyəsinə, hərbi intizamına, dəstədə daxili qayda-qanuna riayət edilməsinə, qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə cavabdehlik daşıyan komandir hərbi qulluqçuların öz vəzifələrinin icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını nəzərimizə çatdırdı. Hərbi hissə komandiri tərəfindən müsbət xarakterizə olunan polkovnik-leytenant Q.Məhərrəmov xidməti fəaliyyətində peşəkar zabit kimi fərqlənməyi bacarıb.

Şəxsi heyətin nəzəri biliyinin və döyüş hazırlığının artırılması məqsədilə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi, atəş, fiziki, taktiki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, o cümlədən, sıra və ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlərin keçirilməsində qrup və yarımqrup komandirlərinin metodiki cəhətdən biliklərinin artırılması, hərbçilər tərəfindən mövzuların dərindən qavranılması prosesi əsas götürülür.

O, dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkar olmağın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. Xidmətini daxili işlər nazirinin müavini-daxili qoşunlar komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil etdiyini deyərək, keçirilən praktiki və nəzəri məşğələlərin mövzularının keyfiyyətli və tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini sözlərinə əlavə etdi. Kiçik komandir heyətilə məşğələlərə xüsusi diqqət yetirilir. Onların şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, aidiyyəti tapşırıqlar verilir.

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran komandir söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi, bu sahədə ona yaxından köməklik göstərən bölmə komandirləri və onların müavinlərinin əməyini qeyd etməyi unutmadı. Xüsusən, leytenant Allahverdi Cüməliyevin hərbi qulluqçuların fərdi qaydada peşəkarlığının artırılması istiqamətində mütəmadi işlər gördüyünü vurğuladı.



Məşğələlərin plan-konspektlərinin hazırlanmasında və hərbi qulluqçuların tərbiyəsi işində xüsusi vasitələrin tətbiqi qrupunun komandiri leytenant Əziz Qurbanovun zəhmətini diqqətə çatdıran polkovnik-leytenant Q.Məhərrəmov nümunəvi hərbi qulluqçulardan gizir Asəf İbrahimov, baş çavuş Mikayıl Məmmədovun da adlarını çəkdi. Xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla yerinə yetirəcəyinə, qarşıya qoyulan tapşırıqların icrası zamanı qətiyyət və peşəkarlıq göstərəcəyinə əmin olduğunu bildirdi.

**baş leytenant**
**Nigar Ağayeva**

3_Layout 1 29.04.2022 10:23 Page 1



*Şəhidlərimiz*

# VƏTƏNPƏRVƏR, QORXUBİLMƏZ, CƏSUR DÖYÜŞÇÜ İDİ...

44 günlük Vətən müharibəsində hərbi zəfərin qazanılmasında igid oğullarımızın vətənpərvərliyi və şücaəti mühüm rol oynayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayında çıxışı zamanı bu döyüşlərin tarixi əhəmiyyətini, o cümlədən, hərbi qulluqçularımızın göstərdiyi qəhrəmanlıq nümunələrini yüksək qiymətləndirib: “Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər”.

Vətən uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmış vətənpərvər gənclərimizdən biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur döyüşçüsü baş çavuş Vəlizadə Anar Afət oğludur.

Baş çavuş Anar Vəlizadə 1994-cü il iyulun 3-də Salyan rayonunun Cəngən kəndində anadan olub. Afət Vəliyevin və Zenfira Vəliyevanın böyüdüb tərbiyə etdiyi 3 oğuldan (Səbuhi, Anar və Rüfət) biri, həmçinin, ailənin ortancıl övladı idi...

Orta təhsilini Sovet İttifaqı Qəhrəmanı Məhərrəm Dadaşov adına Kürqaraqaşlı kənd tam orta məktəbində alıb. Hələ orta məktəbin doqquzuncu sinfində oxuyarkən həvəskar qaydada idmanın karate növü ilə məşğul olub, rayon birinciliyi üzrə keçirilən yarışlarda bir sıra nailiyyətlər qazanıb, müxtəlif dərəcəli fərman və medallarla təltif olunub. Anar müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin iyul ayından 2014-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində keçib. Hələ uşaq yaşlarından bərbərlik sənətinə maraq göstərib və bu peşənin bütün incəliklərini öyrənib. Hətta Anar valideynlərinə əsgəri xidmətini başa vurduqdan sonra, kəndə qayıdaraq bərbər kimi fəaliyyət göstərəcəyini də deyib. Lakin müddətli həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra fikrini dəyişib və həyatını hərbçi kimi davam etməyi qarşısına məqsəd olaraq qoyub. Bu səbəbdən də tərxis olunduqdan bir müddət sonra yenidən hərbi xidmətə qayıtmağa qərar verib.



Beləliklə, 2014-cü ilin iyul ayında Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Burada xüsusi vasitələrin tətbiqi bölməsinin manevr qrupunda baş atıcı, atıcı-sanitar, 2015-ci ilin may ayından isə hərbi hissənin “Yarasa” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunda istehkamçı vəzifələrində xidmət edib. 2020-ci ilin yanvar ayından qoşunların 16075 saylı hərbi hissəsinin “Əqrəb” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində istehkamçı vəzifəsində xidmətini davam etdirən cəsur silahdaşımız şəhadətə qovuşduğu günədək əsl xüsusi təyinatlı amalı ilə Vətənə olan borcunu şərəflə yerinə yetirib.

Xidmət etdiyi dövrdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Göygöl rayonu ərazisində təşkil etdiyi istehkamçı ixtisası üzrə kursu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib.

Baş çavuş A.Vəlizadə sıralarında xidmət etdiyi Daxili Qoşunların hər iki hərbi hissəsinin şəxsi heyəti arasında əsl vətənpərvər döyüşçü, eyni zamanda, səmimi, mehriban və qayğıkeş yoldaş kimi elə məhz bu gün də dərin ehtiramla xatırlanır.

16075 saylı hərbi hissədə “Əqrəb” şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Ələsgər Muxtarov vaxtilə tabeliyində xidmət etmiş silahdaşının vətənpərvərliyindən və cəsurluğundan böyük qürur hissi ilə danışdı: “44 günlük Vətən müharibəsində dəstəmizin qəhrəmancasına şəhid olmuş xüsusi təyinatlılarından biri də istehkamçı yarımqrupunda istehkamçı vəzifəsində xidmət etmiş baş çavuş Anar Vəlizadədir.

Vətənpərvər, qorxubilməz, cəsur bir döyüşçü idi. Eyni zamanda, dəstəmizin nizam-intizamlı, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan nümunəvi hərbi qulluqçularından biri olub. Silahdaşlarının da xatirəsində Anar məhz bu cür qalıb.

İndiki kimi yadımdadır, Vətən müharibəsinin ilk günündə, döyüşöncəsi dəstənin şəxsi heyətinə müraciət edərək, hər hansı bir problemlərinin, eləcə də ailələri ilə bağlı nigarançılıqlarının olub-olmaması ilə maraqlanırdım. Anarın bir azyaşlı oğlunun olduğunu, yaxın zamanlarda ikinci övladının da dünyaya gələcəyini, həmçinin, ailə vəziyyəti ilə bağlı bir sıra çətinliklər yaşadığını bilirdik. Lakin bütün bunlara baxmayaraq, Anar qəti şəkildə döyüş əməliyyatlarında iştirak etmək istədiyini, yoldaşları ilə birgə son nəfəsinədək vuruşacağını bildirdi.

İlk döyüşümüz 2020-ci il sentyabrın 27-də Cəbrayıl istiqamətindən başladı. Sentyabrın 30-da, axşam saatlarında dəstəmiz ayrı-ayrı qruplar şəklində Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələri ilə birgə Arazboyu və Lələtəpə istiqamətindən uğurlu hücum əməliyyatı keçirərək, heç bir itki vermədən düşmənin qarşıda yerləşən istehkam səddini yarmağa və əsas mövqelərindən bir neçəsini tutmağa müvəffəq oldu. Bu hərbi əməliyyatlar zamanı baş çavuş A.Vəlizadə bacarıqlı istehkamçı kimi öndə gedərək, irəlilədiyimiz istiqamətlərdə qüvvələrimizin təhlükəsiz hərəkəti üçün erməni işğalçılarının illərlə möhkəmləndirdiyi, həmçinin, “keçilməz” hesab etdikləri sədlərin mina və digər partlayıcı vasitələrdən təmizlənərək açılmasında misilsiz xidmətləri oldu. Bununla yanaşı, Anar iştirak etdiyi döyüşlər zamanı silahdaşları ilə birgə düşmənin xeyli sayda canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində fəal iştirak edib.

Vətən müharibəsi zamanı Anar iki dəfə - oktyabrın 4-də Cəbrayıl istiqamətindəki döyüşdə qumbaraatan mərmisinin yaxınlığına düşməsi nəticəsində barotravma (kontuziya), ayın 10-da isə Füzuli rayonunun Qarakollu kəndində düşmənin qurduğu pusquda mövqelərimizə atılan əl qumbarasının partlaması səbəbindən kürəyindən üç qəlpə yarası almışdı. Bütün bunlara baxmayaraq, o, cəbhə bölgəsində olan həkimlərə özünü çox yaxşı hiss etdiyini və sağlamlığı ilə bağlı hər hansı bir probleminin olmadığını deyərək, tibb işçilərinin təkidli tələblərinə rəğmən, müalicə almaq üçün qospitala getməkdən imtina edərək, yenidən döyüşlərə qatılmışdı.

Anar ikinci dəfə yaralandıqdan sonra ona ikinci - qız övladının dünyaya gəldiyini



demişdilər. Mən onu yanıma çağırıb, bu münasibətlə öncə təbrik edib, sonra təkidlə həm üzünü görmədiyi övladına qovuşmasını, həm də müalicəsini davam etdirməsinin məqsədəuyğun olduğunu desəm də, inadından dönməyərək, yoldaşları ilə birgə sonadək düşmənə qarşı mübarizə aparmaq arzusunda olduğunu bildirdi.

Bəli, doğma torpaqlarımızın azadlığı uğrunda vuruşaraq şəhid olmağı hər şeydən üstün tutan Anar əsl vətənpərvər döyüşçü olduğunu bir daha təsdiq etmiş oldu”.

Baş çavuş A.Vəlizadənin cəsur silahdaşları: 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri kiçik gizir Ruslan Əmrahlı, pulemyotçu baş çavuş Hacımurad Məmmədov və atıcı-sanitar çavuş Tahir Babayev Vətən müharibəsi zamanı onunla birgə Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak ediblər. Onların bildirdiklərinə görə, Anar 2020-ci il noyabrın 5-dən 6-na keçən gecə Şuşa qalasının yaxınlığındakı dərədə, düşmən tankından atılan mərminin yaxınlığında partlaması nəticəsində aldığı ağır qəlpə və yanıq xəsarətlərindən şəhid olub.

17 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə Anarın 9 noyabr 2020-ci ildə Şuşada hərbi əməliyyat nəticəsində törənmiş zədələnmələr səbəbindən şəhid olduğu yazılıb. Bununla yanaşı, bir sıra nəşrlərdə baş çavuş A.Vəlizadənin 2020-ci il noyabrın 7-də şəhidlik məqamına yüksəldiyi göstərilib.

Baş çavuş A.Vəlizadə 2020-ci il noyabrın 12-də Salyan rayonunun Cəngən kəndinin qəbiristanlığında dəfn olunub. Evli idi. 2018-ci ilin avqust ayında Gülbahar xanımla ailə həyatı qurmuş şəhid hərbi qulluqçumuzun Fariz və Fatimə adlı övladları yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il, 22 dekabr 2020-ci il və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Vəlizadə Anar Afət oğlu (ölümündən sonra) “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Ailə üzvlərinin və hərbçi yoldaşlarının xatirələri əsasında müxtəlif televiziya kanallarında və sosial şəbəkələrdə igid silahdaşımızın gənc nəslə nümunə olan həyat və hərbi xidmət yolu barədə süjetlər göstərilib. Bundan əlavə, 2021-ci ildə nəşr olunan “Qələbə şəhidləri” kitabında Anarın həyat və döyüş yolu işıqlandırılıb.

Şəhid hərbi qulluqçumuzun anası Zenfira xanım övladının timsalında Vətən uğrunda canını qurban verən bütün igid oğullarımızla fəxr etdiyini dedi: “Anar mənim gözümdə həmişə gülərüz, qayğıkeş, səmimi, öz yerini bilən balam kimi qaldı. Anar mənim üçün 26 yaşında, nə böyümədi, nə yaşlanmadı, elə o yaşda da qəlbimdə qaldı. O, mənim təkcə oğlum deyildi, dostum, sirdaşım idi. Bütün dərd-sərini mənimlə bölüşürdü. Biz ana-bala kimi olmamışıq, əsl dost kimi olmuşuq.

Anar müharibədə olanda, oktyabrın 7-də qızı dünyaya gəlib. Telefonla zəng edərək, üzünü görmədiyi qızının adını Fatimə qoymağımızı dedi.

Onunla son danışığım oktyabrın 29-da olmuşdu. Gecə, təxminən saat 11-12 arası olardı. Anar mənə “ailəmi sənə tapşırıram, sənə arxayınam, mənim sənin kimi mehriban və qayğıkeş anam var” - dedi”.

“Mən oğlumla fəxr edirəm. Torpaqlarımızın azadlığı uğrunda həlak olub” – deyən şəhid atası Afət Vəliyevin qeyd etdiyi kimi, Vətən uğrunda canlarını qurban verərək, bizlərə qələbə sevincini yaşadan qəhrəman şəhid oğullarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# SNAYPER SİLAHI İLƏ DÜŞMƏNƏ QAN UDDURAN VƏ YARALANARAQ SOL GÖZÜNÜN NURUNU İTİRƏN MƏTİN DÖYÜŞÇÜ...

Azərbaycanın böyük hərbi zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsində erməni işğalçılarının darmadağın edilməsinə layiqli töhfəsini vermiş hər bir qazinin döyüş yolu Vətən naminə fədakarlıq nümunəsidir. Ön cəbhədə düşmənə qarşı vuruşarkən sağlamlıqlarını itirmiş bu igidlər xalqımızın ləyaqətli övladlarıdır. Qazilik onların həyatda yerinə yetirdikləri şərəfli missiyadır.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında xidmət etmiş çavuş Hüseynov Orxan İlqar oğlu Vətən müharibəsi qazisidir. O, 1990-cı il sentyabrın 30-da Yevlax şəhərində doğulub. İlqar Hüseynov və Dünya Hüseynovanın üç övladından ortancılıdır. Hüseynovlar ailəsi Yevlax rayonunun Rüstəmli kəndində yaşayır. Orxan ailədə vətənpərvər ruhda tərbiyə olunaraq boya-başa çatıb. Rüstəmli kənd tam orta məktəbinin məzunudur. Orta məktəbdə oxuduğu dövrdən hərbçi peşəsinə rəğbət bəsləyib. Çağırışaqədərki hazırlıq fənninə daha çox maraq göstərib.

2009-cu ilin yanvar ayında Orxan müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların tərkibində əsgər kimi xidmətə başlayaraq hərbi andı qəbul edib. Sonra kiçik komandirlər hazırlayan kursu bitirib. 17074 saylı hərbi hissədə əməliyyat bölüyünün süvari taqımında manqa komandiri və taqım komandirinin müavini vəzifələrində xidmət edərək “çavuş” hərbi rütbəsinədək yüksəlib.

2010-cu ilin iyul ayında Orxan hərbçi üçün gərəkli olan nümunəvi şəxsi keyfiyyətləri və öz arzusu nəzərə alınaraq, 17074 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda xidmət zamanı heyət nəfəri (Kalaşnikov pulemyotu silahı üzrə) və snayper vəzifələri ona həvalə olunub. Təyin edildiyi vəzifələrdə vicdanla fəaliyyət göstərib, komandanlığın etimadını doğruldub, dəfələrlə mükafatlandırılıb. Xüsusi təyinatlı dəstənin qarşısına qoyulmuş tapşırıqların icrasında əzmkarlığı ilə fərqlənib, təlimlərdə çalışqanlıq göstərərək təhkim olunmuş silah və xüsusi vasitələrin xüsusiyyətlərini dərindən mənimsəyib, istifadəsi qaydalarına bacarıqla yiyələnib. Həmçinin, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi üçün xüsusi təyinatlı olaraq öz səylərini əsirgəməyib.

2011-ci ilin may-iyun aylarında Orxan qardaş Türkiyə Respublikasının paytaxtı Ankarada bu ölkənin Silahlı Qüvvələrinə aid Atıcılıq və nişançılıq üzrə təlim mərkəzində snayper kursunu keçib, hərbi qulluqçumuza müvafiq sertifikat təqdim edilib.

Hərbi xidməti dövründə xüsusi təyinatlıya öz məharəti sayəsində peşə hazırlığı sınağından uğurla keçdiyinə görə zoğalı beret daşımaq hüququ verilib.

2019-cu ilin iyun ayının 26-da Orxan III dərəcəli “Qüsursuz xidmətə görə” medalı ilə təltif olunub.

Vətən müharibəsinin ilk günündən Orxan öz silahdaşları ilə birlikdə döyüşlərdə iştirak edib. Murovdağdan başlayaraq Cəbrayıl şəhərinədək davam edən döyüş yolunda snayper silahı ilə düşməni vahiməyə salıb, sərrast atəş açaraq xeyli sayda işğalçının həyatına son qoyub.

Vətən Müharibəsi Qəhrəmanı, 16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi mayor Nicad Bədəlov bildirdi ki, Orxanı 2013-cü ildən tanıyır, döyüşçü bir müddət onun tabeliyində xidmət keçib. Vətənpərvər və intizamlı hərbi qulluqçu olduğunu, həmişə onu digərlərinə nümunə göstərdiyini söylədi.

Müharibə zamanı Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin şəxsi heyəti ilə birgə qoşunların xüsusi təyinatlılarının çətin sınaqlardan keçdiklərini vurğulayan mayor N.Bədəlovun sözlərinə görə, hər bir döyüşçü qələbəmiz naminə mətinliklə vuruşub. Onlardan biri olan Orxan verilən döyüş tapşırıqlarını qətiyyətlə yerinə yetirib, snayper silahı ilə hədəfə aldığı işğalçılara qan uddurub.



Mayor N.Bədəlov məlumat verdi ki, oktyabrın 5-də günorta vaxtı Cəbrayıl şəhəri ərazisində erməni xüsusi təyinatlılarına aid hərbi hissəyə döyüşçülərimiz hücuma keçərkən Orxan düşmənin atıcı silahdan açdığı atəş nəticəsində baş və boyun nahiyələrindən ağır yaralanıb.

17074 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunda snayper yarımqrupunun komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Samir Mirzəyev qeyd etdi ki, Orxanı 2012-ci ildən tanıyır, onun yoldaşlıqda etibarlı və qayğıkeş olduğunu, səmimiyyəti, sadəliyi, ünsiyyətdə zarafatcıllığı ilə seçildiyini vurğuladı. Xüsusi təyinatlı məsləyinə daim sadiq qalıb. Daxili Qoşunlarda snayperlər arasında keçirilən yarışlarda nailiyyətlər əldə edib.

Diqqətə çatdırdı ki, müharibə zamanı Orxanla birgə “F” dəstəsinin tərkibində döyüşüblər. Murovdağ silsiləsi, Füzuli və Cəbrayıl rayonları istiqamətlərində düşmənin müdafiə xəttinin yarılması, onun mövqelərinin ələ keçirilməsi, texnika, silah-sursatının qənimət götürülməsi, bir sıra yüksəkliklərin, habelə ayrı-ayrı yaşayış məntəqələrinin azad olunmasında Orxan xüsusi təyinatlı kimi cəsurluq nümayiş etdirib.

Samir danışdı ki, müharibədə döyüşçü qardaşlığı mühüm amilə çevrilib, çətin anlarda bir-birlərinə güvənləri və köməyə yetişmələri onlara mənəvi güc verib. Orxan yaralanarkən Müdafiə Nazirliyinin xüsusi təyinatlılarından gizir Aqil Zeynallı (Vətən müharibəsində şəhidlik zirvəsinə ucalıb) və çavuş Orxan Daşdıyev (Vətən müharibəsi qazisidir) ona ilk yardım göstərərək döyüş meydanından çıxarıblar. Döyüşçünün üzgözü qan içində olub.

Vətən müharibəsi qazisi, 2-ci qrup əlil, istefada olan baş çavuş İbrahim Əhmədov Orxanı 2016-cı ildən tanıdığını, dost olduqlarını dedi. Bildirdi ki, Orxan xidmət zamanı peşə hazırlığına xüsusi diqqət yetirib, daim öz üzərində çalışıb. Hərbi kollektivdə hörmət qazanıb.

İbrahimin sözlərinə görə, silahdaşı müharibədə xüsusi təyinatlı kimi dözüm və iradəsi, döyüşkənliyi ilə digər döyüşçülərə örnək olub. Yaralanmış Orxanın təxliyyəsinə İbrahim də kömək edib. “Orxan mənə dedi ki, üşüyürəm, ona papağımı və isti gödəkçəmi çıxarıb verdim”.

Oktyabrın 6-da İbrahim də ağır yaralanıb.

Füzuli Rayon Mərkəzi Xəstəxanası, Bakı Şəhər 1 saylı Xəstəxanası və Daxili Qoşunların Hərbi Qospitalında stasionar müalicə olunan Orxanın üzərində cərrahiyyə əməliyyatı da aparılıb. Həkimlər tərəfindən qaziyə “kəllə-beyin travması, alın nahiyəsinin sol medialını və boynun sağ yarısının yumşaq toxumalarını dəlib keçən, dilaltı sümüyün sağ orta kənarının yerdəyişən sınıqlarına səbəb olan güllə yaralanması, baş-beyin funksiyalarının mühüm dərəcədə pozulması, görmə sinirinin atrofiyası” diaqnozu qoyulub. Beləliklə, o, sol gözündə görmə qabiliyyətini itirib. Sağlamlıq vəziyyətinə görə həm dinc, həm də müharibə dövründə hərbi xidmətə yararsız hesab edilərək 2021-ci il fevralın 27-də istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 18 dekabr 2020-ci il, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamlarla çavuş O. Hüseynov “Cəsur döyüşçü”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Qazinin qardaşı baş çavuş Ravin Hüseynov da Vətən müharibəsi iştirakçısıdır, döyüşlərdə yaralanıb. Müxtəlif medallara layiq görülüb. 17072 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcıdır.

Ailə qurmuş Orxanın Sevgi adlı qız övladı var. Doğmalarının qayğısı, el-obanın hörməti, döyüşçü yoldaşları ilə davamlı ünsiyyəti müharibədə sağlamlığını itirmiş qazi üçün mənəvi dayaqdır. Özünün dediyinə görə, kənd orta məktəbində hərbi hazırlıq rəhbəri vəzifəsi qazi olaraq ona etibar edilib. Gənclərin hərbi xidmətə hazırlığı işində əməyinin olması da Vətən qarşısında təqdirəlayiq xidmətdir.

**Yalçın Abbasov**

# MƏKTƏBLİLƏR ARASINDA “ŞAHİN” HƏRBİ İDMAN YARIŞI KEÇİRİLİB

Aprelin 15-də Daxili Qoşunların 99713 saylı hərbi hissəsində “Şahin” hərbi idman oyunu keçirilib. Tədbirdə hərbi hissənin komandanlığı, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşı Qılman Eyvazov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Səməndər Mənəfov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin şöbə rəisi mayor Elşən Əhmədov, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Namiq Tarverdiyev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Namil Məmmədov, Biləcəri Bələdiyyəsinin sədri Etibar Axundov, həmçinin, 32 nəfər məktəb direktoru, 32 nəfər hərbi hazırlıq, 32 nəfər fiziki tərbiyə müəllimi və 448 nəfər şagird iştirak edib.





İlk olaraq hərbi hissə komandanlığı və qonaqlar şəhidlər abidəsinin önünə gül dəstələri qoyublar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

99713 saylı hərbi hissənin komandiri polkovnik Alim İsmayılov tədbirdə çıxış edib. O, çıxışında bu gün respublikamızda gənclərin əsl vətəndaş kimi tərbiyə olunması və onlarda vətənpərvərlik hisslərinin formalaşması istiqamətində görülən işlərdən danışıb. Qeyd edilib ki, cəmiyyətdə gənclərin rolu xüsusilə artmaqdadır. Respublikamızın iqtisadi cəhətdən qüdrətli bir dövlətə çevrilməsində gənclərimiz aparıcı qüvvədir. İstər elm, istərsə də təhsil, mədəniyyət sahələrində gənclərimiz daim uğurlar qazanırlar. Bununla yanaşı, ordu quruculuğu prosesində də gənclərimizin rolu danılmazdır. Belə ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsasını məhz



gənclər təşkil edirlər. Bu baxımdan onların düzgün istiqamətdə maarifləndirilməsi, hərbi-vətənpərvərlik tərbiyəsinin bundan sonra da gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Çıxış edən qonaqlar 44 günlük Vətən müharibəsində hərbi qulluqçularımızın göstərdikləri qəhrəmanlıq nümunələrindən danışaraq, onların bugünkü gənc nəslə əsl örnək olduqlarını vurğulayıblar. Şəhidlərimizin əziz xatirəsinin hər birimizin qəlbində əbədi yaşayacağını və onların ehtiramla yad ediləcəklərini söyləyiblər. Bununla yanaşı, qonaqlar gənclərə vətənpərvərlik hissi aşılayan bu cür tədbirlərin keçirilməsinin vacibliyini qeyd edərək, bunun üçün yaradılan şəraitə görə Daxili Qoşunların və hərbi hissənin komandanlığına minnətdarlıqlarını ifadə ediblər.

İştirakçı komandaların sıra önündən təntənəli keçidindən sonra sıra elementlərinin nümayiş etdirilməsi, 100 metr məsafəyə qaçış, turnikdə dartınma və şərti



xəstələrin xərəklə təxliyyəsi tapşırıqları üzrə yarışlar keçirilib.

Yarışın nəticələrinə əsasən Binəqədi rayonundakı 184 saylı tam orta məktəb 1-ci, 300 saylı tam orta məktəb 2-ci, 144 saylı tam orta məktəb isə 3-cü yerə layiq görülüb.

**kapitan Xədicə Hacızadə**

# İstehkamçılar çətin və riskli tapşırıqları bacarıqla yerinə yetirirlər

17072 saylı hərbi hissənin yüksək döyüş hazırlığı ilə fərqlənən bölmələrindən biri xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur. İstehkamçı yarımqrupun əsas vəzifələri təhkim edilmiş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - mərmilərin, partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, habelə meşəlik-dağlıq ərazilərdə dəstənin öncü qismində yolların açılması, şəxsi heyətin təhlükəsiz irəliləməsidir. Eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarışlar aparılaraq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsi də istehkamçı yarımqrupun qarşısında duran tapşırıqlardandır.

Yarımqrup komandiri-baş istehkamçı gizir Elçin Quliyev 2013-cü ilin noyabr ayından Daxili Qoşunların sıralarındadır.





17072 saylı hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edib. 2015-ci ilin aprel ayından xidmətini hərbi hissənin xüsusi təyinatlı dəstəsində davam etdirir. 2021-ci ilin avqust ayından hazırkı vəzifədədir. Xüsusi təyinatlı dəstənin komandiri vəzifəsini müvəqqəti icra edən kapitan Orxan Daşdəmirov tərəfindən müsbət xarakterizə olunur.

Gizir E.Quliyev qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlərin keçirildiyini vurğuladı. Bildirdi ki, hər həftənin çərşənbə günləri yarımqrupun şəxsi heyəti ilə birlikdə praktiki məşğələlər təşkil olunub keçirilir.

Bundan əlavə, hər həftənin şənbə günləri hərbi hissənin mühəndis və kimya xidməti rəisi vəzifəsini müvəqqəti icra edən kapitan Əşrəf Həmzəyev tərəfindən yarım-



qrupun şəxsi heyətinə ixtisas hazırlığından - ərazidə minaların axtarılması, tapılması, minaların əraziyə döşənməsi, minalı ərazidən keçidlərin açılması, avtomobillərin yoxlanılması, şübhəli bilinən bağlamalara təhlükəsizlik qaydalarına əməl edilərək yaxınlaşma, səyyar minaaxtaran cihazlarla işləmə qaydasının öyrədilməsi və başqa mövzularda nəzəri məşğələlər keçirilir.

Gizir E.Quliyev onu da söylədi ki, ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə, idman yarışlarında yaşayış və qeyri-yaşayış obyektlərində müvafiq sxemlərə uyğun olaraq, hərbi hissənin istehkamçıları ərazinin tam axtarışı, həmçinin, nəzarət-buraxılış məntəqələrində avtomobillərin yoxlanılması, gəzən yandırıcı, partlayıcı, kəsici-deşici alətlərin aşkarlanması üçün yüksək məsuliyyət və sayıqlıq nümayiş etdiriblər. Bundan əlavə, yarımqrupun şəxsi heyəti torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan 44 günlük Vətən müharibəsində rəşadətlə vuruşub və istehkamçı kimi vəzifələrini ləyaqətlə yerinə yetirib.

O, tabeliyində olan hər bir hərbi qulluqçunun öz funksional vəzifələrinə ciddi yanaşdığını, məşğələlərdə fəallıq nümayiş etdirdiyini bildirdi. Qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələn istehkamçılardan baş çavuş Qəhrəman Şahquliyev, çavuşlar Elməddin Yusubov və Elçin Əhmədağalının adlarını qeyd etdi.

Məsuliyyətli işin öhdəsindən layiqincə gələn istehkamçılarımıza gələcək xidmətlərində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# VETERANIN YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL OLUNUB

Aprelin 21-də 16075 saylı hərbi hissədə Daxili Qoşunların veteranı, istefada olan mayor Vidadi Əliyevin 65 yaşının tamam olması münasibətilə yubilyarla görüş keçirilib. Görüşdə hərbi hissənin komandanlığı, veteranlar və qazilər iştirak ediblər. Hərbi hissəyə gələn qonaqlar öncə şəhidlər abidəsinin önünə gül dəstələri qoyublar, xalqımızın qəhrəman övladlarının xatirəsi ehtiramla anılıb.



Sonra brifinq otağında keçirilən tədbirdə Daxili Qoşunların Veteranlar şurasının sədri Çingiz Daşdəmirov və digər veteranlar çıxış edərək V.Əliyevin qoşunların tərkibində keçdiyi təqdirəlayiq xidmət yolu, şəxsi heyətin təlim-tərbiyəsinə verdiyi töhfələr, silahdaşları arasında qazandığı hörmət, müsbət şəxsi keyfiyyətləri barədə danışıblar.

Hərbi hissə komandiri polkovnik Rəşadət Süleymanov öz çıxışında Daxili Qoşunların komandanlığı tərəfindən veteranlara göstərilən diqqət və qayğını xüsusi vurğulayıb, onların yubileylərinin keçirilməsinin müsbət bir ənənə olduğunu nəzərə çatdırıb. O, şəxsi heyət adından yubilyarı təbrik edərək, ona möhkəm cansağlığı, uzun ömür və veteran olaraq fəaliyyətində uğurlar arzulayıb. V.Əliyevə təbriknamə, rəmzi hədiyyə və gül buketi təqdim olunub.

V.Əliyev görüş iştirakçılarına hörmət və ehtiramını ifadə edib, bu tədbirin təşkilinə görə hərbi hissənin komandanlığına dərin minnətdarlığını bildirib.

Sonda tədbir iştirakçıları xatirə şəkli çəkdiriblər.

**Yalçın Abbasov**

NÜMUNƏVİ XİDMƏT

# ŞƏRƏFLİ DÖYÜŞ YOLU KEÇƏN VƏ XİDMƏTDƏ ƏZMKARLIQ GÖSTƏRƏN HƏRBİ QULLUQÇUMUZ

99713 saylı hərbi hissənin hərbi qulluqçusu olan çavuş Vüsal Eyniyev nümunəvi xidməti ilə fərqlənir. O, 1989-cu il iyulun 18-də Yardımlı rayonunun Zevin kəndində anadan olub. Orta təhsilini kənd orta məktəbində alıb. Hələ uşaq ikən, 12 yaşından idmanın karate növü ilə məşğul olaraq peşəkar səviyyəyə yüksəlib. Karate üzrə I dan qara kəmər ustasıdır. İdmana marağı bu gün də özünü büruzə verir. 2007-2009-cu illərdə Sərhəd Qoşunlarının “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.



Müddətdən artıq həqiqi hərbi xidmətə 2013-cü ildə Daxili Qoşunların 12318 saylı hərbi hissəsində başlayıb. Elə həmin vaxtdan bu günə kimi Daxili Qoşunların sıralarındadır. Özünün dediyinə görə, uşaq yaşlarından hərbçi olmaq həvəsilə yaşayıb. Orta məktəbi bitirdikdən sonra isə artıq öz yolunu seçən Vüsal taleyini hərbi xidmətə bağlamağı yəqinləşdirmişdi. Buna görə də Daxili Qoşunlara gəlişi təsadüfi olmayıb.

Xüsusi təyinatlı dəstənin komandiri mayor Elçin Babayev tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçu hazırda dəstədə yarımqrup komandiri vəzifəsindədir.

Vətənpərvərlik əqidəsinə sadiq olan çavuş V.Eyniyev bu gün hərbi xidmətdə əzmkarlıq, dözümlülük göstərərək, öz vəzifələrini layiqincə yerinə yetirir. Ayıq-sayıqlığı ilə digərlərindən seçilir, istənilən vəziyyətdə qarşıya qoyula biləcək döyüş tapşırığının icrasına hazırdır. O, təlimdə də çalışqandır və müsbət nailiyyətlər əldə edir. Hərbi ənənələrin qorunmasında əlindən gələni edir, nizam-intizamı və tərbiyəsi ilə hərbi qulluqçulara örnəkdir.

Ötən illər ərzində hərbi qulluqçu kimi qazandığı bilik və bacarıqlar döyüş meydanında onun köməyinə yetib. Vətən müharibəsi iştirakçısıdır. Ağır döyüş sınağından alnıaçıq, üzüağ çıxan hərbi qulluqçumuzun müharibə xatirələri bizimlə bölüşərkən gözlərində qürur hissi ilə yanaşı, həm də dərin bir kədər sezdim. Söhbət əsnasında həyatının həmin günlərinin həm qürurla, həm də dərin bir iztirabla yaddaşına həkk olunduğunu dedi. Vətən torpağının azadlığı uğrunda döyüşlərdə ən yaxın silahdaşları şəhid olan çavuş V.Eyniyev həm də canı qədər sevdiyi doğma qardaşı çavuş Tərlan Eyniyevi də əbədi olaraq itirib. Şəhadətə yüksələn qardaşını fəxrlə anan Vüsal şəhidlərin heç vaxt ölmədiklərini, hər zaman qəlblərdə yaşayacaqlarını vurğuladı.

Vətən müharibəsində düşmənə sarsıdıcı zərbələr vurduğuna, igidlik göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən “Cəsur döyüşçü”, “Döyüşdə fərqlənməyə görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunub.

**baş leytenant Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR

- YENİLİKLƏR -

## Türkiyə ordusuna “Karaok” raketləri təhvil veriləcək

ROKETSAN şirkəti tərəfindən hazırlanan “Karaok” tank əleyhinə raketləri bu il Türkiyə Silahlı Qüvvələrinin istifadəsinə veriləcək. Ordu.az xəbər verir ki, bu barədə şirkətin baş direktoru Murat İkinci bildirib.

Görüntülü infraqırmızı (IIR) axtarış başlığına sahib olan “Karaok” raketi bir hərbi qulluqçu tərəfindən atıla bilər.

Konsepsiya baxımından ABŞ istehsalı



“Javelin”ə oxşar “Karaok” diametri 125 millimetr, çəkisi 16 kiloqram, 2,5 kilometr uçuş məsafəsi olan və zirehdələn tandem döyüş başlığı ilə təchiz edilən, “atdım-unutdum” istifadə rejimində işləyən raket sistemidir.

# Allah rəhmət eləsin

Ali Hərbi Məktəbin komandanlığı kapitan Anar Ağayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000